"DÖVLƏT QEYDİYYATINA ALINMIŞDIR"

Azərbaycan Respublikasının Vergilər Nazirliyi yanında Milli Gəlirlər Departamentinin Hüquqi şəxslərin dövlət qeydiyyatı İdarəsi tərəfindən

Qeydiyyat № 2000314101

"30" aprel 2018-ci il

Direktor: S. Seyidəhmədli

"TƏSDİQ EDİLMİŞDİR"

Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən

Sərəncam № 63

"26" fevral 2018-ci il

Sədr müavini R. Şahbazov

# "Peşə təhsili və insan kapitalı" elmi-praktiki, metodiki jurnal

# Məhdud Məsuliyyətli Cəmiyyətinin

# NİZAMNAMƏSİ

## 1. Ümumi müddəalar

1.1. Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Hüquqi şəxslərin dövlət qeydiyyatı üzrə Bakı bölgə şöbəsində 20.11.2001-ci il tarixli R-166 nömrəsi ilə dövlət qeydiyyatına alınmış "Sənətkar" jurnalı redaksiyasının çevrilməsi nəticəsində yenidən təşkil edilən və onun hüquqi varisi olan "Peşə təhsili və insan kapitalı" elmi-praktiki, metodiki jurnal Məhdud Məsuliyyətli Cəmiyyəti (bundan sonra – Cəmiyyət) öz fəaliyyətini Azərbaycan Respublikasının Mülki Məcəlləsi, qüvvədə olan digər qanunvericilik aktları və bu nizamnamə əsasında həyata keçirir.

1.2. Cəmiyyətin balansında ayrıca əmlakı vardır, öz öhdəlikləri üçün bu əmlakla cavabdehdir, öz adından əmlak və şəxsi qeyri-əmlak hüquqları əldə etmək və həyata keçirmək, vəzifələr daşımaq, məhkəmədə iddiaçı və ya cavabdeh olmaq hüququna malikdir. Cəmiyyət müstəqil balansa, təsərrüfat fəaliyyətinin təmin edilməsi məqsədilə istifadəsinə verilmiş dövlət əmlakına, möhürə, müvafiq ştamplara, blanklara və banklarda müvafiq hesablara malikdir.

1.3. Cəmiyyət Azərbaycan Respublikası Təhsil Nazirliyinin (bundan sonra - "Nazirlik") tabeliyində fəaliyyət göstərir.

1.4. Cəmiyyət öz iştirakçılarının üçüncü şəxslər qarşısında öhdəliklərinə görə məsuliyyət daşımır.

1.5. Cəmiyyətin tam adı: "Peşə təhsili və insan kapitalı" elmi-praktiki, metodiki jurnal Məhdud Məsuliyyətli Cəmiyyəti, qısaldılmış adı: "Peşə təhsili və insan kapitalı" elmi-praktiki, metodiki jurnal MMC-dir.

1.6. Cəmiyyətin hüquqi ünvanı: Azərbaycan Respublikası, Bakı şəhəri, Nərimanov rayonu, Əlicabbar Orucəliyev küçəsi, 61.

## 2. Cəmiyyətin fəaliyyət istiqamətləri

2.1 "Peşə təhsili və insan kapitalı" elmi-praktiki, metodiki jurnal MMC-nin əsas məqsədi cəmiyyətdə operativ və obyektiv informasiya bolluğunu təmin etmək, elmi, mədəni və digər mənəvi dəyərləri inkişaf etdirməkdən ibarətdir.

2.2 Cəmiyyətin fəaliyyət istiqamətləri aşağıdakılardır:

- Fakt və hadisələri obyektiv işıqlandırılması, müxtəlif fikirlərin, rəylərin ifadə edilməsinə şərait yaradılması;
- Peşə təhsili və insan kapitalı ilə bağlı elmi-praktiki məqalələrin dərc edilməsi;
- Sosioloji sorğuların keçirilməsi;
- Azərbaycanın ictimai həyatının, təhsil, elm və mədəniyyət hadisələrinin, bununla bağlı faktların işıqlandırılması;
- Mədəni irsimizdən, mənəvi dəyərlərimizdən bəhs edən təhlili yazıların verilməsi;
- Fəaliyyət sahəsi üzrə informasiya-məlumatların verilməsi, ictimai, elmi-kütləvi, təhsil, hərbi-vətənpərvərlik, əyləncə, uşaq və gənclər, mədəniyyət, idman və digər sahələrin işıqlandırılması;
- Mətbəə və nəşriyyat-poliqrafiya fəaliyyətinin həyata keçirilməsi;
- Qanunvericiliklə qadağan olunmayan digər fəaliyyət növlərinin həyata keçirilməsi.

2.3. Xüsusi razılıq (lisenziya) tələb olunan fəaliyyət növləri ilə Cəmiyyət yalnız müvafiq dövlət orqanlarından belə razılıq (lisenziya) aldıqdan sonra məşğul ola bilər.

## 3. Cəmiyyətin nizamnamə kapitalının və təsisçinin nizamnamə kapitalında payının miqdarı

3.1. Cəmiyyətin nizamnamə kapitalı 60 (altmış) manat hər birinin dəyəri 30 (otuz) manat olmaqla 2 (iki) paydan ibarətdir.

3.2. Cəmiyyətin Nizamnamə kapitalında təsisçinin payı aşağıdakı kimi müəyyən edilir:

- Dövlətin adından payın mülkiyyətçisi hüquqlarını təmsil edən Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsi (bundan sonra – Komitə) – 100%, 60 (altmış) manat, 2 (iki) pay, pul şəklində.

3.3. İştirakçının qoyduğu mayaların tərkibi, maya qoyması qaydası və maya qoyulması üzrə öhdəlikləri pozmağa görə məsuliyyət ümumi yığıncağın qərarı ilə müəyyənləşdirilir.

## 4. Cəmiyyətin idarəetmə orqanları

### 4.1. Ümumi yığıncaq

4.1.1. Cəmiyyətin ali idarəetmə orqanı iştirakçıların ümumi yığıncağıdır (bundan sonra – "ümumi yığıncaq")

4.1.2. Ümumi yığıncağın müstəsna səlahiyyətlərinə aşağıdakılar aiddir:

- Cəmiyyətin nizamnaməsini və onun nizamnamə kapitalının miqdarını dəyişdirmək;
- Cəmiyyətin yenidən təşkili və ya ləğvi haqqında qərar qəbul etmək;
- Cəmiyyətin filial və nümayəndəliklərinin açılmasına, fəaliyyətinə xitam verilməsinə, onların əsasnamələrinin təsdiq edilməsinə razılıq vermək;
- Cəmiyyətə məxsus dövlət əmlakının (daşınmaz və daşınar) girov qoyulmasına razılıq vermək və bu barədə əqdlərin qeydiyyatını aparmaq;

4.1.3. Komitə bu nizamnamənin 4.1.2.-ci yarımbəndi ilə müəyyənləşdirilmiş Cəmiyyət barəsində həll etdiyi məsələləri Nazirliyin təklifləri əsasında həyata keçirir.

4.1.4. Nazirlik cəmiyyətin idarə edilməsi barədə aşağıdakı məsələləri həll edir:

- idarəetmə orqanlarının üzvlərini vəzifəyə təyin və vəzifədən azad edir, müvafiq hallarda onlarla əmək müqavilələri bağlayır, onların səlahiyyətlərini müəyyən edir;
- illik hesabatlarını, mənfəətin (zərərin) bölgüsünü təsdiq edir;
- inkişaf istiqamətlərini və əməkhaqqı sistemini müəyyən edir, strukturunu təsdiq edir;

4.1.5. Ümumi yığıncaq növbəti və növbədənkənar ola bilər.

4.1.6. Cəmiyyət bir iştirakçıdan ibarət olduqda Cəmiyyətdə ümumi yığıncağın səlahiyyətlərinə aid olan məsələlər barəsində qərarlar həmin iştirakçı tərəfindən təkbaşına qəbul edilir və yazılı surətdə rəsmiləşdirilir.

4.1.7. Cəmiyyətin illik fəaliyyətinin yekunlarına həsr olunmuş ümumi yığncaq hesabat-maliyyə ili başa çatdıqdan sonra dörd aydan gec olmayaraq Cəmiyyətin baş redaktoru tərəfindən çağırılır. Ümumi yığıncağın çağırılması tarixinə azı 3 (üç) iş günü qalmış iştirakçıya yazılı bildiriş göndərilməlidir. Ümumi yığıncağın çağırılması haqqında bildirişdə Cəmiyyətin adı və olduğu yer, ümumi yığıncağın keçirilmə tarixi, vaxtı, ünvanı, gündəliyi və ümumi yığıncağın gündəliyi üzrə materiallarla tanış olunma qaydası göstərilməlidir.

4.1.8. Növbədənkənar ümumi yığıncaq baş redaktorun öz təşəbbüsü ilə və ya bütün səslərin azı onda birinə malik olan iştirakçıların tələbi ilə bu nizamnamənin 4.1.7-ci yarımbəndi ilə müəyyən edilmiş qaydada çağırılır.

4.1.9. Ləğvetmə prosesində olan cəmiyyətin növbədənkənar ümumi yığıncağı ləğvetmə komissiyası tərəfindən bu nizamnamənin 4.1.8-ci yarımbəndi ilə müəyyən edilmiş qaydada çağırılır.

### 4.2. Cəmiyyətin icra orqanı

4.2.1. Cəmiyyətin fəaliyyətinə cari rəhbərlik təkbaşçı icra orqanı olan baş redaktor tərəfindən həyata keçirilir. Cəmiyyətin strukturunda baş redaktorun müavin(ləri) ştat vahid(ləri) müəyyən edilə bilər.

4.2.2. Baş redaktor cəmiyyətin bütün fəaliyyət istiqamətlərinin nəticələrinə görə tam məsuliyyət daşıyır. O, müəssisə adından vəkalətnaməsiz fəaliyyət göstərir, cəmiyyətin operativ idarə edilməsini həyata keçirir, üçüncü şəxslərə olan münasibətdə, o cümlədən məhkəmədə cəmiyyəti təmsil edir, ümumi yığıncağın təsdiqinə dair sənədləri hazırlayır, cəmiyyətin adından əqdlər bağlayır, rəsmi sənədləri imzalayır, cəmiyyətin işçilərini vəzifəyə təyin edir, başqa işə keçirir, vəzifəsindən azad edir, onların vəzifə maaşlarını müəyyən edir, onların barəsində həvəsləndirmə və tənbeh tədbirlərinin görülməsi haqqında əmrlər verir. Qanunvericiliklə və cəmiyyətin nizamnaməsi ilə ümumi yığıncağın, müşahidə şurasının və təftiş komissiyasının (müfəttişin) səlahiyyətlərinə aid edilməyən digər səlahiyyətləri həyata keçirir.

4.2.3. Cəmiyyət Nazirlik ilə razılaşdırılmaqla illik maliyyə hesabatının düzgünlüyünü yoxlatmaq üçün hər il əmlak mənafeləri ilə cəmiyyətə və ya onun təsisçilərinə bağlı olmayan peşəkar auditor cəlb edə bilər. Cəmiyyətin fəaliyyətinin auditor yoxlanışlarının aparılması qaydası qanunvericilik və cəmiyyətin nizamnaməsi ilə müəyyənləşdirilir. Auditor yoxlamalarının aparılması qaydası, maliyyə-təftiş komissiyasının vəzifələri, funksiyaları və səlahiyyətləri, onların işini təşkil edən qaydalar Azərbaycan Respublikasının Qanunverici aktları ilə və ümumi yığıncağın qanunvericiliyə uyğun olan qərarı ilə tənzimlənir.

## 5. Cəmiyyətin əmlakının yaranması

5.1. Cəmiyyətin əmlakı qanunvericiliyə uyğun olaraq hüquqi şəxslərə mənsub ola bilməyən əmlakın ayrı-ayrı növləri istisna edilməklə, onun əsas fondlarından və dövriyyə vəsaitlərindən, o cümlədən dəyəri Cəmiyyətin müstəqil balansında əks olunan digər dəyərlərdən ibarətdir.

5.2. Cəmiyyətin əmlakının yaranma mənbələri aşağıdakılardır:

- Təsərrüfat fəaliyyətinin təmin edilməsi məqsədilə istifadəsinə verilmiş dövlət əmlakı;
- Sərbəst təsərrüfat fəaliyyətindən əldə olunan gəlirlər;
- Bank və digər kreditlər;
- Azərbaycan Respublikasının qanunvericiliyi ilə qadağan olunmayan digər mənbələr hesabına.

5.3. Cəmiyyətə verilmiş dövlət əmlakı yalnız Cəmiyyətin nizamnamə məqsədlərinə uyğun olaraq istifadə edilir.

5.4. Cəmiyyətin əmlakı tamamilə dövlət mülkiyyətindədir.

5.5. Komitənin razılığı olmadan Cəmiyyətin əmlakı (naturada və ya pul şəklində) üzərində daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alına bilən yüklülüklər müəyyən edilə bilməz.

## 6. Cəmiyyətin işinin planlaşdırılması, uçotu və hesabatı

6.1. Cəmiyyət yerinə yetirdiyi işlərə və göstərdiyi xidmətlərə olan tələbatı nəzərə alaraq müstəqil surətdə öz fəaliyyətini planlaşdırır və inkişaf perspektivlərini, eyni zamanda, istehsal və sosial inkişafın təmin olunmasının zəruriliyini müəyyən edir.

### 4.2. Cəmiyyətin icra orqanı

4.2.1. Cəmiyyətin fəaliyyətinə cari rəhbərlik təkbaşçı icra orqanı olan baş redaktor tərəfindən həyata keçirilir. Cəmiyyətin strukturunda baş redaktorun müavin(ləri) ştat vahid(ləri) müəyyən edilə bilər.

4.2.2. Baş redaktor cəmiyyətin bütün fəaliyyət istiqamətlərinin nəticələrinə görə tam məsuliyyət daşıyır. O, müəssisə adından vəkalətnaməsiz fəaliyyət göstərir, cəmiyyətin operativ idarə edilməsini həyata keçirir, üçüncü şəxslərə olan münasibətdə, o cümlədən məhkəmədə cəmiyyəti təmsil edir, ümumi yığıncağın təsdiqinə dair sənədləri hazırlayır, cəmiyyətin adından əqdlər bağlayır, rəsmi sənədləri imzalayır, cəmiyyətin işçilərini vəzifəyə təyin edir, başqa işə keçirir, vəzifəsindən azad edir, onların vəzifə maaşlarını müəyyən edir, onların barəsində həvəsləndirmə və tənbeh tədbirlərinin görülməsi haqqında əmrlər verir. Qanunvericiliklə və cəmiyyətin nizamnaməsi ilə ümumi yığıncağın, müşahidə şurasının və təftiş komissiyasının (müfəttişin) səlahiyyətlərinə aid edilməyən digər səlahiyyətləri həyata keçirir.

4.2.3. Cəmiyyət Nazirlik ilə razılaşdırılmaqla illik maliyyə hesabatının düzgünlüyünü yoxlatmaq üçün hər il əmlak mənafeləri ilə cəmiyyətə və ya onun təsisçilərinə bağlı olmayan peşəkar auditor cəlb edə bilər. Cəmiyyətin fəaliyyətinin auditor yoxlanışlarının aparılması qaydası qanunvericilik və cəmiyyətin nizamnaməsi ilə müəyyənləşdirilir. Auditor yoxlamalarının aparılması qaydası, maliyyə-təftiş komissiyasının vəzifələri, funksiyaları və səlahiyyətləri, onların işini təşkil edən qaydalar Azərbaycan Respublikasının Qanunverici aktları ilə və ümumi yığıncağın qanunvericiliyə uyğun olan qərarı ilə tənzimlənir.

## 5. Cəmiyyətin əmlakının yaranması

5.1. Cəmiyyətin əmlakı qanunvericiliyə uyğun olaraq hüquqi şəxslərə mənsub ola bilməyən əmlakın ayrı-ayrı növləri istisna edilməklə, onun əsas fondlarından və dövriyyə vəsaitlərindən, o cümlədən dəyəri Cəmiyyətin müstəqil balansında əks olunan digər dəyərlərdən ibarətdir.

5.2. Cəmiyyətin əmlakının yaranma mənbələri aşağıdakılardır:

- Təsərrüfat fəaliyyətinin təmin edilməsi məqsədilə istifadəsinə verilmiş dövlət əmlakı;
- Sərbəst təsərrüfat fəaliyyətindən əldə olunan gəlirlər;
- Bank və digər kreditlər;
- Azərbaycan Respublikasının qanunvericiliyi ilə qadağan olunmayan digər mənbələr hesabına.

5.3. Cəmiyyətə verilmiş dövlət əmlakı yalnız Cəmiyyətin nizamnamə məqsədlərinə uyğun olaraq istifadə edilir.

5.4. Cəmiyyətin əmlakı tamamilə dövlət mülkiyyətindədir.

5.5. Komitənin razılığı olmadan Cəmiyyətin əmlakı (naturada və ya pul şəklində) üzərində daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alına bilən yüklülüklər müəyyən edilə bilməz.

## 6. Cəmiyyətin işinin planlaşdırılması, uçotu və hesabatı

6.1. Cəmiyyət yerinə yetirdiyi işlərə və göstərdiyi xidmətlərə olan tələbatı nəzərə alaraq müstəqil surətdə öz fəaliyyətini planlaşdırır və inkişaf perspektivlərini, eyni zamanda, istehsal və sosial inkişafın təmin olunmasının zəruriliyini müəyyən edir.

6.2. Cəmiyyət öz fəaliyyətinin nəticələrinə görə qanunvericiliklə müəyyən edilmiş qaydada və formada mühasibat və əməliyyat uçotu, statistik hesabat aparır, balans tərtib edir.

6.3. Cəmiyyətin maliyyə ili: qeydiyyata alındığı vaxtdan başlayır və həmin ilin 31 dekabrında başa çatır. Növbəti maliyyə illəri isə 1 yanvardan başlayır və 31 dekabradək olan dövrü əhatə edir.

## 7. Sığortalanma

Cəmiyyətin əmlakının, istehsal, maliyyə və digər risklərinin sığortası onun öz mülahizəsi ilə, Azərbaycan Respublikasının Qanunvericiliyi ilə məcburi sığorta nəzərdə tutulmazsa həyata keçirilir.

## 8. Vergi qoyma

Cəmiyyət Azərbaycan Respublikasının Qanunvericiliyi ilə müəyyən olunmuş vergiləri ödəyir.

## 9. Əmək münasibətləri

9.1. Cəmiyyətdə işəgötürmə və işdən azadetmə məsələləri, əmək rejimi, əmək haqqı, kompensasiyalar da daxil olmaqla əmək qanunvericiliyi ilə tənzimlənir.

9.2. Əmək haqqı, cəmiyyətin işçilərinin sosial təminat məsələləri, məzuniyyətlərin verilməsi onların hər biri ilə bağlanan əmək müqavilələri əsasında qanunvericiliyə uyğun qaydada həll edilir.

## 10. Sosial sığorta və təminat

Cəmiyyətin işçilərinin sosial sığortası və təminatı Azərbaycan Respublikasının Qanunvericilik normaları ilə tənzimlənir.

## 11. Cəmiyyətin yenidən təşkili və ləğvi

Cəmiyyətin yenidən təşkili və ləğvi Azərbaycan Respublikasının mülki məcəlləsində və digər qanunvericilik aktlarında müəyyən edilmiş qaydada həyata keçirilir.

## 12. Digər şərtlər

12.1. Cəmiyyətin fəaliyyəti ilə əlaqədar olan, lakin bu nizamnamə ilə tənzimlənməyən digər məsələlər Azərbaycan Respublikasının Qanunvericiliyinin tələblərinə uyğun olaraq tənzimlənir.

12.2. Nizamnamənin dəyişdirilməsi (nizamnamədə edilmiş dəyişikliklər (əlavələr)) onun dövlət qeydiyyatından keçdiyi andan qüvvəyə minir.

12.3. Gələcəkdə bu nizamnamənin hər hansı müddəası qanunvericiliklə ziddiyyət təşkil edərsə, qanunvericiliyin müddəası tətbiq edilir.